Elm və İnnovativ Texnologiyalar Jurnalı Nömrə 19, 2021. 75-93
DOI: 10.30546/2616-4418.19.2021.75

# AZƏRBAYCAN MUZEYLƏRİNDƏ NİZAMİ İRSİ

**Elfira MELİKOVA-QURBANOVA**
*Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti, Azərbaycan*

## 1. Giriş

Bəşəriyyətin əbədi irsində xüsusi yeri olan, sevilib seçilən dahilərdən biri də Şeyx Nizami Gəncəvidir. “O, bəşər fəlsəfi fikrinin dahi memarı, ustadı, dünya poeziyasının günəşidir...Nizami şah əsərləri olan “Leyli və məcnun”, “Sirlər xəzinəsi”, “Xosrov və Şirin”, “Yeddi gözəl”, “İskəndərnamə” mənzum romanlarında ən qiymətli fikri, ecazkar sözü Allaha ünvanlayır. “Xosrov və Şirin”də yazır: “Kömək qapısını aç, ey yaradan! Göstər Nizamiyə düz yolu hər an! ” (Qurbanov,1992, s.9) İlahi varlığı, İlahi haqqı, İlahi ədaləti əsərlərinin “ana xəttinə” çevirən Nizami Gəncəvi Dünya var olunca yaşayacaq.Azərbaycanın ədəbi, mədəni mühitində Nizami Gəncəvi poeziyası həmişə tədqiqat obyekti olaraq qalır.

Azərbaycanın alimləri, yazıçı və şairləri, rəssam və bəstəkarları, ustad sənətkarları istər Vətənimizdə, istərsə də ondan kənarda Böyük Nizamini öz yaradıcılıqlarında vəsf edərək sevdirə bilmişlər.Xalqımızın sənətkara verdiyi dəyər həmişə yüksək olmuşdur. Azərbaycanın Xalq şairi Səməd Vurğunun dediyi kimi: "Bizdə şeir də var, sənət də vardır Şairə, sənətə hörmətdə vardır". Ölkəmizdən kənarda da Nizami irsini təbliğ edən, gözəl pedaqoqlarımız və alimlərimiz olmuşdur. Onlardan Əziz Şərif və Şeydabəy Məmmədovun adlarını çəkmək olar. Hər biri böyük elmi yol keçərək Rusiyanın Moskva şəhərində M.V.Lomonosov adına Dövlət Universitetində dərs demişlər. Sonralar onların tələbələri olan və M.V.Lomonosov adına Dövlət Universitetində dərs deyən Mayarov və Kostuçenko deyirdi: "...Nizamini bizə yaxınlaşdıran, sevdirən sevimli müəllimlərimiz... Əziz Şərif və Şeydabəy Məmmədov olmuşdur" (Qurbanov, 1992, s.8).Dünya şöhrətli professor Rüstəm Əliyev də Nizami irsini gözəl bilən alimlərimizdən biri olub. (rus alimi Yevgeniy Bertelsin dəvəti ilə Leninqraddan Moskvaya gəlmiş, SSRİ EA Şərqşünaslıq İnstitutunda işləmiş, kiçik elmi işçidən Şərq mətinşünaslığı bölməsinin müdiri vəzifəsinədək yüksəlmişdir) Azərbaycan Respublikası Mətbuat və İnformasiya Nazirliyinin elmi məsləhətçisi, AMEA prezidentinin klassik şərq ədəbiyyatı üzrə müşaviri, "Şəhriyar" qəzeyinin və "Nizami Gəncəvi" jurnalının baş redaktoru olmuşdur) Rüstəm Əliyev Azərbaycanın görkəmli kinorejissoru Eldar Quliyevin çəkdiyi "Nizami" filminin elmi məsləhətçisi olmuşdur.Bu faktlar arxiv sənədlərində, o cümlədən muzey arxivlərində də qorunur.1939-cu ildən sonra Azərbaycanın muzey tarixində Nizami Gəncəvi irsinin təbliği üçün böyük bir addım atıldı. 1945-ci ildən sonra isə Azərbaycan muzeyşünaslığı yeni mərhələyə daxil oldu. Azərbaycanda elmi potensialın güclənməsi Milli Ədəbiyyat muzeyinin yaradılmasında özünü göstərdi. Nizami Gəncəvi adına Ədəbiyyat Muzeyinin ilk direktorlarından İsmayıl Axundovun 1946-cı il oktyabrın 17-də yazdığı hesabata görə muzeyin kollektivi əsasən, Bakı Dövlət Universitetini bitirmiş gənclərdən ibarət idi... "Bu gənclər muzeyə "kiçik elmi işçi" vəzifəsinə qəbul edilmişdir.

Gənc işçilərin elmi səviyyəsini və muzeyşünaslıq səriştəsini artırmaq üçün muzeydə xüsusi kurslar və dərnəklər təşkil edilmişdir. Məsələn: Lətif Kərimov fars dili kurslarını aparır, arxeoloq alim İ.Şeblıkin orta əsr memarlıq abidələrimizə həsr olunmuş silsilə mühazirələr oxuyur, 6 nəfər kiçik elmi işçi təcrübə mübadiləsi üçün Moskva, Leninqrad, Tbilisi və s. şəhərlərin böyük kitabxanalarına ezam edilmişlər. O vaxt muzeydə

çalışanlar arasında, yeganə elmi dərəcəli kadr, sonralar muzeyin direktoru və Azərbaycan ədəbiyyatşünaslığının ən tanınmış simalarından birinə çevriləcək Həmid Araslı imiş" (Hüseynov,2000, s.23). Nizami Gəncəvi adına Azərbaycan Ədəbiyyatı muzeyində çalışan görkəmli alimlər, tədqiqatçılar Milli ədəbiyyatımızın əsas qaynaqlarını əldə edərək gələcək alimlərə böyük irs qoydular. Nizami yaradıcılığını özündə əks etdirən Milli Ədəbiyyat muzeyi Azərbaycanın digər muzeylərinə də bir örnək oldu. Bakı şəhərində yazıçı Abdulla Şaiqin ev muzeyi, Nizami Gəncəvi adına Gəncə Tarix diyarşünaslıq muzeyi, Qəbələ, Bərdə, Quba, Ucar, Masallı rayonu tarix-diyarşünaslıq muzeylərində Böyük Nizamiyə ithaf edilmiş eksponatlar toplanmışdır.Azərbaycanın görkəmli pedaqoq, maarifçisi, yazıçı Abdulla Şaiq həm Ümumtəhsil məktəbdə, həm də Azərbaycan Pedaqoji Universitetdə "Azərbaycan ədəbiyyatı" fənnini tədris etmişdir. Azərbaycan ədəbiyyatının klassikləri Nizami, Füzuli, Vaqif və s. haqqında mühazirələr oxumuşdur. Abdulla Şaiqin işlədiyi mühazirələdən biri də Nizami Gəncəvi haqqında olmuşdur. Nizami yaradıcılığını dərindən araşdıran ədib onun poemaları əsasında pyeslər də yazmışdır.Baki şəhərində fəaliyyət göstərən Abdulla Şaiqin Mənzil-Muzeyinin Əsas fondunda qorunan nadir nəşrlər içərisində Abdulla Şaiqin "Nüşabə" pyesi saxlanır. 1946-cı il "Vətən uğrunda" adlı jurnalın 1-ci sayında nəşr edilən bu pyes Nizami Gəncəvinin "İskəndərnamə" poeziyasına böyük ehtiramla yazılmışdır. Pyesin əlyazması A.Şaiqin ev Muzeyinin əsas fondunda 11 saylı inventar olaraq qeydə alınmışdır. (Muzeyin direktoru Ülkər xanım Talıbzadə)

**A.Şaiqin ev Muzeyinin əsas fondunda:**

1.İnventar 11 – A.Şaiq. Nizamidən tərcümə. Əsli. Bir vərəq (bir səhifə) 20,5 x 14. Başlanır: Ey bağban, şənlik qur, qəm – qüssədən qaç! Bitir: Bağçaya qondu qızıl gül.(Ərəb əlifbası ilə yazılan əl yazması).

**Muzeyin Teatr sənədləri qorunduğu yerdə:**

1.İnventar 149 – Afişa – A.Şaiq "Fitnə" II hissəli dram tamaşasının afişası. Rejissor M.Kazımov, rəssam S.Haqverdiyeva, bəstəkar O.Kazımov. Ölçüsü: 59x95

2. İnventar 1 – Proqram. Abdulla Şaiq. «Nüşabə».1946-47-cı il mövsümi. Əzizbəyov adına. Azərb. Dövlət Dram Teatrı.

3.İnventar 5 – Proqram. «Fitnə ». A.Şaiq Nizami Gəncəvinin 800 illiyi münasibətilə.

4.İnventar 39 – Foto. A.Şaiq. «Fitnə» tamaşasından A.Qurbanov Bəhram şah rolunda GTT. 1957 Rej. G.Həsənov. Rəs. S.Şərifzadə

5.İnventar 55 –Afişa. A.Şaiq. «Fitnə » Azərb. Dövlət Dram Teatrının səhnəsindən.

**Qədim Yeni Hədiyyə Kitabları qorunduğu yerdə:**

1.İnventar 307 – Nizami Gəncəvi. "İsgəndərnamə" (Şərəfnamə. İqbalnamə) 662 səh. "Şərəfnamə"ni tərcümə edən Abdulla Şaiq.

Gəncə şəhərində fəaliyyət göstərən **Nizami Gəncəvi adına Gəncə Tarix diyarşünaslıq muzeyinin** əsas fonduna aid olub ekspozisiyada nümayiş edilən eksponatlar sırasında Nizaminin qəbrindən aşkarlanmış çıraqlar, (ondan əlavə muzeyin ekspozisiyasında) Nizami Gəncəvinin portreti, portret xalçalar və Nizami Gəncəvinin əsərlərinə həsr edilmiş illüstrativ materiallar yer almaqdadır. Dahi şairin büstü muzeyin ən qiymətli eksponatlarından biridir. Büstün müəllifi Azərbaycanın məşhür heykəltəraşı Fuad Əbdürrəhmanovdur. Qəzənfər Xalıqov tərəfindən çəkilmiş Nizami Gəncəvi portretinin ikinci nüsxəsi (surəti) (1ci nüsxə Nizami adına Azərbaycan Ədəbiyyatı muzeyində qorunur) uzun illərdir ki, muzeyin ekspozisiyasında nümayiş edilir. Gəncədən olan Rəssam Faiq Abdullayevin çəkdiyi "Yeddi gözəl" silsiləsi muzeyin dəyərli kolleksiyalarındandır. Nizami Gəncəvi irsini özündə ehtiva edən 20 - dən artıq bədii sənət nümunəsi muzeyin əsas fonduna aiddir.

| | | | |
|---|---|---|---|
| Xalça portret<br><br>Halı-portre<br><br>Carpet-portrait | Yun<br><br>Yün<br><br>wool | En 50sm Uzunluq 74 sm<br><br>Genişlik 50 cm Uzunluk 74 cm<br><br>Width 50 cm Length 74 cm |  |
| Xalça<br><br>Halı<br><br>Carpet | Yun<br><br>Yün<br><br>wool | En 1.47sm uzunluq 2.21sm<br><br>Genişlik 1,47 cm Uzunluk 2,21 cm<br><br>width 1,47 cm length 2,21 cm |  |

| | | | |
|---|---|---|---|
| Faiq Abdullayev Rəsm əsəri “Yeddi gözəl ” Slaviyan gözəli.<br><br>Faik Abdullayev Resim “Yedigüzel” – Slav gözeli<br><br>Painting “Seven beauties” Slavic beauty – FaikAbdulla yev | Kətan – yağlıboya<br><br>Tuval- yağlı boya<br><br>Canvas - oil painting | 105x65 sm əsas fond<br><br>105x65 cm Esasvakıf<br><br>105x65 cm main foundation |  |
| Rəsm əsəri “Yeddi gözəl ” Məğrib Zəmin gözəli. Faiq Abdullayev<br><br>Resim “Yedi güzel” – Mağrip Zemin güzeli Faik Abdullayev | Kətan- yağlı boya<br><br>Tuval- yağlı boya | 105x65 sm<br><br>105x65 cm |  |

| | | | |
|---|---|---|---|
| Painting “Seven Beauties” – Beautiful Maghreb Ground Faik Abdullayev | Canvas - oil painting | 105x65 cm | |
| Çap qrafikası “Xosrov və Şirin ”<br><br>Qrafik yazdır<br><br>Print graphic | | 65x89 sm<br><br>65x89 cm<br><br>65x89 cm |  |
| Rəsm əsəri “Yeddi gözəl ” Çin gözəli Faiq Abdullayev<br><br>Resim “Yedi güzel” – Çin güzeli Faik Abdullayev<br><br>Painting “Seven Beauties” – Chinese beauty Faik Abdullayev | Kətan-yağlı boya<br><br>Tuval-yağlı boya<br><br>Canvas - oil painting | 105x65 sm<br><br>105x65 cm<br><br>105x65 cm |  |

| | | | |
|---|---|---|---|
| Rəsm əsəri “Yeddi gözəl” Hind Gözəli. Faiq Abdullayev<br><br>Resim “Yedigüzel” – Hint güzeli Faik Abdullayev<br><br>Painting “Seven Beauties” – Indian beauty Faik Abdullayev | Kətan-yağlı boya<br><br>Tuval-yağlı boya<br><br>Canvas - oil painting | 105x65 sm<br><br>105x65 cm<br><br>105x65 cm |  |
| Rəsm əsəri “Yeddi gözəl ” Rum gözəli. Faiq Abdullayev<br><br>Resim “Yedigüzel” – Rum güzeli Faik Abdullayev<br><br>Painting “Seven Beauties” – Greek beauty Faik Abdullayev | Kətan-yağlı boya<br><br>Tuval-yağlı boya<br><br>Canvas - oil painting | 105x65 sm<br><br>105x65 cm<br><br>105x65 cm |  |

| | | | |
|---|---|---|---|
| Rəsm əsəri miniatür "Leyli və Məcnun"<br><br>Resim minyatür "Leyla ile Mecnun"<br><br>Painting miniature "Layla and Majnun" | Kətan-yağlı boya<br><br>Tuval-yağlı boya<br><br>Canvas-oil painting | 75x56 sm<br><br>75x56 cm<br><br>75x56 cm |  |
| Çap qrafikası "Yeddi gözəl "<br><br>Qrafik yazdır "Leyla ile Mecnun"<br><br>Print a graphic "Layla and Majnun" | | 65x89 sm<br><br>65x89 cm<br><br>65x89 cm |  |

| | | | |
|---|---|---|---|
| Çap qrafikası “Nizami Gəncəvi ”<br><br>Qrafik yazdır “Nizami Gencevi<br><br>Print a graphic “Nizami Ganjavi”” | | 65x89 sm<br><br>65x89 cm<br><br>65x89 cm |  |
| Rəsm əsəri “Yeddi gözəl ” Xarəzm gözəli. Faiq Abdullayev<br><br>Resim “Yedigüzel” – Harezm güzeli Faik Abdullayev<br><br>Painting “Seven Beauties” - Beauty of Khwarezm Faik Abdullayev | Kətan-yağlı boya<br><br>Tuval-yağlı boya<br><br>Canvas - oil painting | 105x65 sm<br><br>105x65 cm<br><br>105x65 cm |  |

| | | | |
|---|---|---|---|
| Rəsm əsəri Portret Nizami Faiq Abdullayev<br><br>Resim – porter “Nizami” Faik Abdullayev<br><br>Painting – porter “Nizami” Faik Abdullayev | Kətan-yağlı boya<br><br>Tuval-yağlı boya<br><br>Canvas - oil painting | 100x82 sm<br><br>100x82 cm<br><br>100x82 cm |  |
| Çap qrafikası “Leyli və Məcnun”<br><br>Qrafik yazdır “Leyla ile Mecnun<br><br>Print a graphic “Layla and Majnun” | | 65x89 sm<br><br>65x89 cm<br><br>65x89 cm |  |

| | | | |
|---|---|---|---|
| Çap qarafkası "İsgəndər namə "<br><br>Qrafikyazdır "İskender nâme"<br><br>*Print a graphic "Eskandar-Nâmeh* | | 65x89 sm<br><br>65x89 cm<br><br>65x89 cm |  |
| Rəsm əsəri "Yeddi gözəl" İran gözəli. Faiq Abdullayev<br><br>Resim "Yedi güzel" İran güzeli Faik Abdullayev<br><br>Painting "Seven Beauties" – İranian beauty Faik Abdullayev | Kətan-yağlı boya<br><br>Tuval-yağlı boya<br><br>Canvas-oil painting | 100x85 sm<br><br>100x85 cm<br><br>100x85 cm |  |

| | | | |
|---|---|---|---|
| Rəsm əsəri “N.Gəncəvi nin 800 illik yubleyi” Arif Məmmədov<br><br>Resim “N.Gencevi nin 800 yıl dönümü “ tablosu Arif Memmedov<br><br>Painting “800th anniversary of N.Ganjavi” Arif Mammadov | Kətan-yağlı boya<br><br>Tuval – yağlı boya<br><br>Canvas – oil painting | 67x138 sm<br><br>167x138 cm<br><br>167x138 cm |  |

Azərbaycanın dilbər güşələrindən biri də Qəbələdir. **Qəbələ rayon Tarix-Diyarşünaslıq Muzeyini** yaradanlardan biri Xalis Məmmədov muzeyin zənginləşməsi üçün böyük əmək qoymuşdur.1991 -ci il Azərbaycanın dahi mütəffəkiri, Nizami Gəncəvinin 850 illik yubileyi ilə əlaqədar UNESCO tərəfindən “Nizami ili” elan edilmişdir.1991- ci il “Nizami Gəncəvi poeziyası minətürlərdə” mövzusunda “Azərnəşrin” xüsusi buraxılışı çap edilmiş və əsərlərindən illüstrasiyalar üç dildə: Azərbaycan, ingilis, rus dilində izahlı şəkildə verilmişdir.

Qəbələ rayon Tarix-Diyarşünaslıq Muzeyi də Nizami Gəncəvinin 850 illik yubileyi ilə əlaqədar silsilə tədbirlər həyata keçirmiş və həmin illərdən xatirə olaraq tarixi təbliğat məqsədilə “Azərnəşrin” xüsusi buraxılışından illüstrasiyaları lövhə şəkilində kitabxananın oxucu zalında sərgiləmişdir. Nizami Gəncəvinin “Xəmsə”sini bütünlüklə əhatə edən bu illüstrasiyalar bu gün də hər birimizin maraq və diqqətini çəkir. Muzeyin

direktoru Həqiqət xanım Rüstəmli muzeyin fondunun qorunması və artırılması üçün böyük mücadilə göstərir.

Azərbaycan Respublikası Prezidentinin 05.01.2021 –ci il sərəncamı ilə 2021 –ci il "Nizami Gəncəvi ili" elan edildikdən sonra Azərbaycanın demək olar ki, bütün muzeylərində Böyük Nizamiyə həsr edilən sərgilərin təşkili ilə bərabər, tədbirlərin keçirilməsi də davam edir. Bununla əlaqədar olaraq Quba Tarix-diyarşünaslıq muzeyinin təşkilatçılığı ilə Nizami Gəncəvinin 880 illiyi münasibətilə məktəblilərlə onlayn tədbirlər keçirilmişdir. Tədbirlərdə Nizami Gəncəvi irsi, həmçinin şairin həyat və yaradıcılığı gənc nəsillərə daha geniş şəkildə izah olunmuşdur. Məktəblilər Nizami Gəncəvinin yaradıcılığından şeir nümunələri səsləndirmişlər. Eyni zamanda Nizami Gəncəviyə həsr olunmuş "Nizami Gəncəvi – Xəmsə" adlı video çarx hazırlanaraq sosial şəbəkələrdə nümayiş olunmuşdur.

Muzeyin direktoru Məryəm xanım Hacıyevanın rəhbərliyi ilə Quba Tarix-diyarşünaslıq muzeyində "Nizami Gəncəvi – 880 illiyi" adlı sərgi təşkil olunmuşdur.Sərgidə nümayiş olunan eksponatlar muzeyin fondunda saxlanılan, XI əsr və orta əsrlərə aid olan inventarlardan ibarətdir.2021-ci ilin sonunadək "Nizami Gəncəvi ili" ilə əlaqədar muzeydə bir sıra silsilə tədbirlərin keçirilməsi nəzərdə tutulur. **Şabran Tarix Diyarşünaslıq muzeyi**nin müdiyi Bəsti xanım Məmmədovadan alınan arayışa görə "Şabran Tarix Diyarşünaslıq Muzeyində Azərbaycan Respublikasının Prezidenti Cənab İlham Əliyev 2021-ci ilin "Nizami" ili elan edilməsi haqqında verilən Sərəncamı ilə əlaqədar "Tarixdə İz Qoyan Nizami" adlı onlayn tədbir, "Nizami Gəncəvi Hikmətli Sözlər" adlı sərgi, Nizami Gəncəvi – Sirlər xəzinəsi", "Nizami Gəncəvi-880", "Dövrünün Dahi Şəxsiyyəti – Nizami Gəncəvi" adlı onlayn mühazirə təşkil olunmuşdur.Azərbaycanın qədim tarixi şəhəri olan Bərdə Nizami Gəncəvinin əsərində vəsf edilir. Təsadüfü deyildir ki, **Bərdə Tarix-diyarşünaslıq muzeyi** fəaliyyətə başladığı gündən klassik Azərbaycan şairi Nizami Gəncəviyə aid xüsusi guşə yaradılmışdır.

Muzeyin direktoru Mehriban xanım Əliyevanın verdiyi məlumata görə, Guşədə: Nizami Gəncəvinin foto şəkli, N.Gəncəvinin Bərdəyə həsr etdiyi "Bərdə nə gözəldi necə qəşəngdi" adlı şeri, şairimizin yazıb yaratdığı "Xəmsədən" 5 ölməz əsərin , "Sirlər xəzinəsi", "Xosrov və Şirin"

“Yeddi gözəl”, “Leyli və Məcnun” , “İskəndərnamə”, kitabları və foto şəkilləri nümayiş edilir.N.Gəncəvinin “İskəndərnamə” poemasında Böyük İskəndər Nüşabə ilə Danışarkən Bərdəni vəsf edir.

Deyilənə görə, Bərdədə o dövrdə möhtəşəm kitabxana fəaliyyət göstərirdi ki, bu kitabxanaya şair həftədə 2 dəfə gəlirdi.(Xəmsə qəhrəmanlarının fotoşəkillərinin inventar nömrəsi DK – 1759, 1760, 1761, 1762, 1763 İskəndərnamədən şer “Bərdə nə gözəldi, necə qəşəngdi” 1766, N.Gəncəvinin foto şəkli 1764, Bərdə türbəsinin fotosu 1765, Nizami Gəncəvinin büstü 1758).

Bərdə Tarix - diyarşünaslıq muzeyinin əməkdaşları muzeydə dahi şairimiz N.Gəncəvinin 880-illik yubileyi ilə bağlı yeni guşə hazırlamışdırlar. Bu guşədə N.Gəncəvinin büstü ,şairimizin yazıb yaratdıgı "Xəmsədən" 5 ölməz əsər , Bərdə turbəsinin rəsmi, N.Gəncəvinin Bərdəyə vəsr etdiyi:"Bərdə nə gözəldi necə qəşəngdi" adlı şeri və muzeyə hədiyyə verilmiş N.Gəncəvinin rəsmi sərgilənir.Tarix-Diyarşünaslıq muzeyinin direktoru Gülşən Vəliyevanın ( 05 iyul 2021-ci il) verdiyi məlumata görə, 2021-ci ilin “Nizami ili” elan olunması ilə əlaqədar **Şirvan şəhər Tarix-diyarşünaslıq muzeyi** də təsdiq olunmuş tədbirlər planı üzrə silsilə tədbirlər həyata keçmişdir. Onlardan:

1. “Gözüm aydın, gözümə surəti – canan görünür”.Videoçarx. Dahi Azərbaycan şairi və mütəfəkkiri Nizami Gəncəvinin qəzəl və kəlamlarından ibarət kompozisiya hazırlanmışdır. Muzey tərəfindən hazırlanan tədbirə: Şirvan şəhərinin bir neçə orta məktəb şagirdləri, Kollecin tələbələri də cəlb edilmişdir. Uşaqlar, yeniyetmələr və gənclərlə keçirilən tədbirin tarixi əhəmiyyəti var. Muzeydə həvəskar klubların, birliklərin yaradılması alqışa layiqdir.

2. N.Gəncəvinin “Geçə keçmiş, mənə gəl bir məhi-taban ol sən” qəzəlinə vidioçarx hazırlanmış, muzeyin əməkdaşı Abbasova Vüsalə Əhmədağa qızı tərəfindən səsləndirilmişdir.

3. N.Gəncəvi “Gözüm aydın, gözümə sürəti-canan görünür” qəzəlinə vidioçarx hazırlanmış, baş elmi işçisi Mikayılova Ləman Ağasadıq qızı tərəfindən səsləndirilmişdir.

Böyük həvəslə tədbiri təşkil edən əməkdaşların hər biri həm də tədbirin iştirakçılarına çevrilmişlər.Azərbaycanın zənginliyi, onun xəzinəsi olan Muzeylərdə qorunan əsərləridir. Muzeylərin dəyəri bu xəzinəyə önəm verən, onları qoruyan muzey işçiləridir. Muzey işçilərinin cəfakeşliyi böyük tərifə layiqdir. Gələcəyi keçmişlə bağlayan muzeylər əvəzedilməz tarixi məkan və ziyarətgahlardır.Azərbaycan muzeyləri Nizami irsini toplamaqda , qorumaqda və daim təbliğ etməkdə davam edir.

**Açıqlama bəyanatı**

Müəllif tərəfindən hər hansı potensial marağın toqquşması ilə bağlı məlumat verilməmişdir.

**Email ünvanı:**
elfira.melikova.63@mail.ru

**Ədəbiyyat :**

Elman Qurbanov “Nizami və islam dünyası”. Mədəni-maarif işi № 2 (99) 1992

Hüseynov Rafael. 60 ilin 60 anı yaxud Qədim və Orta əsrlər şöbəsinin muzeydəki ömür tarixçəsi. Nizami Gəncəvi adına Azərbaycan Ədəbiyyatı Muzeyinin “Əsərləri”, VIII cild.- Bakı, 2000. 92 səh.

Quba, Bərdə, Şabran, Ucar Tarix-diyarşünaslıq muzeylərindən və A.Şaiqin ev muzeyindən verilən rəsmi məlumatlar.

**SUMMARY**

**Nizami's legacy in Azerbaijan museums**

**Elfira MALIKOVA-GURBANOVA**
**Azerbaijan State University of Culture and Arts, Azerbaijan**

Azerbaijani pedagogues, writers and poets, artists and composers, masters of art have glorified the Great Order in their works, both in our country and abroad. The value that our people place on the artist has always been high.We have had wonderful teachers and scientists who have supported Nizami's legacy outside of our country.Reflecting the works of Nizami, the National Literature Museum has set an example for other museums in Azerbaijan.

Exhibits dedicated to the Nizami the Great, in Baku in the house-museum of the writer Abdullah Shaig, in Ganja History and Ethnography of Ganja named after Nizami Ganjavi, History and Ethnography of the Gabala region, history and local lore of the Barda region, Masalli district and other museums .

***Key words:*** Nizami Ganjavi, museum, science, heritage, creativity

## РЕЗЮМЕ

### Наследие низами в музеях Азербайджана

**Эльфира МЕЛИКОВА-ГУРБАНОВА**

**Азербайджанский Государственный Университет Культуры и Искусств, Азербайджан**

Азербайджанские педагоги, писатели и поэты, художники и композиторы, мастера искусства прославили Великого Низами в своих произведениях, как в нашей стране, так и за рубежом. Наш народ всегда высоко ценил поэту. У нас были замечательные учителя и ученые, которые продвигали наследие Низами за пределами нашей страны. Национальный литературный музей, отражающий творчество Низами, стал примером для других музеев Азербайджана.

Экспонаты, посвященные Великому Низами, собраны в доме-музее писателя Абдуллы Шаига в Баку, историко-этнографическом доме-музее имении Низами Гянджеви в Гяндже, доме-музее истории и этнографии Габалинского района, доме-музее истории и краеведении Бардинского и Масаллинского района, а также и в других музеях.

**Ключевые слова:** *Низами Гянджеви, музей, наука, наследие,творчество*